შეფასებისა და გამოცდების ეროვნული ცენტრი



# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**1Dinləyişin I hissəsi**

**Dinləyişin hissəsi on tapşırığı birləşdirir.**

**1-6-cı tapşırıqlar.**

**Birinci altı tapşırığa əməl edilməsində musiqi fraqmentlərinin dinlənilməsi və müvafiq suallara cavab verilməsi nəzərdə tutulur. Hər bir tapşırığa bir musiqi fraqmenti və iki sual daxildir. Hər sualı ehtimal olunan dörd cavab müşayiət edir. Bir düzgün cavabı seçin və cavablar vərəqində X-lə işarə edin.**

**Hər bir musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləyiş arasında fasilə 20 saniyədir.**

**Hər bir tapşırığa daxil olan musiqi fraqmenti dinlənilənədək tapşırığın suallarını oxumağınız üçün sizə 10 saniyə vaxt verilir.**

**Tapşırıqlar sonrakı səhifələrdə verilib.**

**Tapşırıq 1.**

**Birinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (1.1 və 1.2):**

**1.1 Hansı guşənin mahnısıdır?**

ა) Sameqrelo

ბ) Quriya

გ) Svaneti

დ) Kaxeti

**1.2 Mahnıda hansı formalı çoxsəslilikdir**

ა) Ostinatik

ბ) Burdonik

გ) Kontrastlı

დ) Kompleks halında

**Tapşırıq 2.**

**İkinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (2.1 və 2.2):**

**2.1 Musiqinin əsasını hansı guşənin qamma-harmoniyası təşkil edir**

ა) Sameqrelo

ბ) Svaneti

გ) Kaxeti

დ) Pşavi

**2.2 Musiqinin müəllifi kimdir?**

ა) Otar Taktakişvili

ბ) Şalva Mşvelidze

გ) Andria Balançivadze

დ) Aleksi Maçavariani

**Tapşırıq 3.**

**Üçüncü musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (3.1 və 3.2):**

**3.1 Əsər hansı formada yazılmışdır?**

ა) Rondo

ბ) Sonata

გ) Variasiya

დ) Üçhissəli

**3.2 Əsərdə dəyişməz halda hansı qrupun çalğı aləti səslənir?**

ა) Nəfəsli ağac alət

ბ) Simli alət

გ) Nəfəsli metal alət

დ) Zərb

**Tapşırıq 4.**

**Dördüncü musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (4.1 və 4.2):**

**4.1 Verdinin operalarından hansı personajın partiyası səslənir?**

ა) Hersoq

ბ) Alfred

გ) Radames

დ) İsmayıl

**4.2 Solo opera nömrəsinin hansı janrıdır?**

ა) Ariozo

ბ) Romans

გ) Ariya

დ) Ballada

**Tapşırıq 5.**

**Beşinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (5.1 və 5.2):**

**5.1 Hansı əsrin musiqisi səslənir?**

ა) Renessans

ბ) Orta əsrlər

გ) XVII əsr

დ) XX əsr

**5.2 Hansı janrın fraqmentidir?**

ა) Operetta

ბ) Müzikl

გ) Opera

დ) Balet

**Tapşırıq 6.**

**Altıncı musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (6.1 və 6.2):**

**6.1 Hansı janrın fraqmentidir?**

ა) Simfoniya

ბ) Opera

გ) Balet

დ) Simfonik üvertüra

**6.2 Musiqinin müəllifi kimdir?**

ა) Şubert

ბ) Berlioz

გ) Mendelson

დ) List

**Tapşırıq 7.**

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz qammanın müvafiq variantını  seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.**

**Qammanı iki dəfə dinləyin.**

**Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**



**Tapşırıq 8.**

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını  seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.**

**Ritmik fiqurasiyanı iki dəfə dinləyin.**

**Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**



**Tapşırıq 9.**

***Musiqi imlası***

**<u>Təlimat</u>. Melodiyanı dinləyin və  not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanı audioyazıda dörd dəfə dinləyin; hər sonrakı dinləyiş arasında 2 dəqiqə interval vardı.**

***<u>Yazılmış melodiyanı cavablar vərəqəsindəki verilmiş  not sisteminə keçirin.</u>***

**Tapşırıq 10.**

***Musiqi əsərinin təhlili***

**Təlimat. Tapşırıqda musiqi əsərinin verilən suallar üzrə audio və not yazıları əsasında təhlili nəzərdə tutulur.**

**Musiqi əsərinin yazısını üç dəfə dinləyin; yazını dinləməzdən əvvəl tapşırığın suallarını bir daha nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.**

**(Suallar sonrakı səhifədə verilib).**

1. Verilmiş fraqment hansı musiqi janrına məxsusdur? Fikrinizi əsaslandırın.

2. Müəyyən edin:

ა) Dinlənilmiş fraqmentin musiqi forması;

ბ) Dinlənilmiş fraqmentin başlanğıc tonallığı;

გ) 8-ci taktda verilmiş kadansa dövriyyəsinə daxil olan akkordların harmonik funksiyaları.

3. Musiqi fraqmentinin bədii-emosional cəhətini, onun dəyişiklikləri ilə birlikdə səciyyələndirin; Musiqini əks etdirmə formalarından hansı xüsusiyyətlərin (hansı formalı melodiya, ritm, temp, tembr, harmoniya, qamma-tonallıq, faktura və s.) musiqi fraqmentinin bədii məzmununu yaratmaq üçün xüsusilə mühüm olduğunu təhlil və qısaca təsvir edin.

4. Dinlənilmiş fraqmentin musiqi səciyyəsi əsasında əsərin yaradıldığı dövrü, cərəyanı və bəstəkarın kimliyini müəyyən edin.

5. Əsərin tarixi-mədəni kontekstini müzakirə edin (bəstəkarın yaradıcılığını səciyyələndirin və onun yaradıcılığında bu janrın əhəmiyyətini göstərin; əsərin musiqi-bədii kontekstinin özünəməxsusluğunu qeyd edin).

**(Əsərin not yazısı sonrakı səhifələrdə verilib)**




12
15
18


21
24
27


29
32
tr
35


38
41
tr
tr
tr
tr
44


47
50
52


55
58
61


65
68
71


74
77
80


83
86
89


92
95
tr
98


101

**II hissə**

**Tapşırıqlar 11-18.**

**<u>Təlimat</u>. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasını X işarəsi ilə göstərin.**

**Tapşırıq 11.**

**Gürcü musiqi mədəniyyətində Filimon Koridzenin nə kimi xidmətləri olmuşdur?**

ა) Gürcüstanda opera janrının əsasının qoyulması

ბ) Gürcü zəngulələrinin toplanması və notlara yazılması

გ) Tbilisidə musiqi məktəbinin təsis edilməsi

დ) Gürcü xor musiqisi şah əsərlərinin yaradılması

**Tapşırıq 12.**

**Qvido Daretsoeli tərəfindən yaradılmış musiqi əlifbasının əsasını nə qoymuşdur?**

ა) İtalyan dili əlifbasının səsləri

ბ) Xristian himninin sözlərinin birinci hecaları

გ) XV əsr madriqalının başlığı

დ) Fransız xalq mahnısının poetik mətni

**Tapşırıq 13.**

**Hansı təyinat konsert janrına uyğundur?**

ა) Solo aləti üçün virtuoz pyes

ბ) Solo aləti və orkestr üçün əsərlər

გ) İnstrumental ansambl üçün çoxhissəli pyes

დ) Solistlər, xor və orkestr üçün əsərlər

**Tapşırıq 14.**

**Musiqili kompozisiyanın "sekvensiya" üsulu necə müəyyən edilir?**

ა) Musiqi taktında güclü və zəif dörvlərin bir-birini əvəz etməsi

ბ) Musiqili ifadənin müxtəlif yüksəklikdə təkrar edilməsi

გ) Musiqi əsərinin personaji ilə konkret tembrin əlaqəsi

დ) Digər musiqi materialının təzələnməsi fonunda musiqi motivinin təkrarı

**Tapşırıq 15.**

**XIX əsrin birinci yarısında gürcü musiqisinin mədəni-maarif ocağı hansı idi?**

ა) Konservatoriya

ბ) Ruhani seminariyaları

გ) Musiqi məktəbi

დ) Kübar salonları

**Tapşırıq 16.**

**Avropa musiqi klassisizminin başında hansı şəhər dururdu?**

ა) Roma

ბ) London

გ) Paris

დ) Vyana

**Tapşırıq 17.**

**Musiqi tempinin azaldılmasını hansı termin əks etdirir?**

ა) accelerando

ბ) ritenuto

გ) sforzando

დ) allegro

**Tapşırıq 18.**

Verilmiş ritmik çertyojlardan "sinkopa" hansıdır?

ა) 

ბ) 

გ) 

დ) 

**Tapşırıq 19.**

**Şekspirin süjetində yaradılmış baletin musiqisinin müəllifidir:**

ა) Andria Balançivadze

ბ) Aleksi Maçavariani

გ) Otar Taktakişvili

დ) Revaz Lağidze

**Tapşırıq 20.**

**Qustav Malerin  1№-li simfoniyasının III hissəsinin əsasını hansı əsərin musiqili sitatı təşkil edir?**

ა) „Marselyoza“

ბ) Fransız xalq mahnısı

გ) Avstriyanın himni

დ) Qriqorisayağı koral

**Tapşırıq 21.**

**Betxovenin 9№-li simfoniyasının xor mətninin müəllifi hansı şairdir?**

ა) Qöte

ბ) Bayron

გ) Şekspir

დ) Şiller

**Tapşırıq 22.**

**Rixard Vaqnerin opera islahatını *sәciyyәlәndirmir:***

ა) Sonsuz melodiya prinsipi

ბ) Fәaliyyәtin inkişafının arasının kәsilmәmәsi

გ) Ariyaların, ansamblların vә xorların “secco” reçitativlәrlә әlaqәsi

დ) Leytmotiv sistemdә qurulmuş simfonik inkişaf

**Tapşırıq 23.**

**Musiqili ekspressionizmin yaranması ilə əlaqədar olan ölkə:**

ა) Fransa

ბ) İtaliya

გ) Almaniya

დ) Avstriya

**Tapşırıq 24.**

**Təqvim janrlı mahnı *deyildir:***

ა) „Cona“

ბ) „Odoya“

გ) „Alilo“

დ) „Kirialeysa“

**Tapşırıq 25.**

**Yaradıcılığında Pirosmaninin bədii surətləri əks olunan bəstəkar:**

ა) Qiya Kançeli

ბ) Sulxan Sinsadze

გ) Otar Taktakişvili

დ) Sulxan Nasidze

**Tapşırıq 26.**

**Nota bənzər müəyyən uzunluğu olan və qrafik əlamətlə əks olunan musiqini əks etdirən element hansıdır?**

ა) Tembr

ბ) Fasilə

გ) Alterasiya işarəsi

დ) Akollada

**Tapşırıqlar 27 - 30.**

***Notdan qurma***

**Təlimat. Re notundan verilmiş interval, üç və dördsəsli akkordlar, qamma qurun və cavablar vərəqində verilmiş not sisteminə yazın:**

27. Böyük seksta

28. Minor üçsəslilik

29. Kiçik major kvintsekstakkord

30. Lidik qamma

**Tapşırıqlar 31 - 33.**

***Uyğunluğun müəyyən edilməsi***

**<u>Təlimat</u>. Tapşırıqda siyahının iki sütunu verilmişdir. Onların həcmləri arasında uyğunluğu müəyyən edin. Soldakı sütunun hər göstəricisinə (1, 2, 3) sağdakı sütununun <u>yalnız bir</u> göstəricisi uyğundur (ა, ბ, გ, დ, ე). Cavablar vərəqində verilmiş cədvəldə hər bir uyğunluğu X işarəsi ilə göstərin.**

**Tapşırıq 31.**

**Hadisələrin baş verdiyi ölkələrdə ölkələr və operalar arasında uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1) İspaniya | ა) Adameus Motsartın “Fiqaronun toyu” |
| 2) Fransa | ბ) Rixard Vaqnerin “Loenqrin” |
| 3) Yunanıstan | გ) Cüzeppe Verdinin “Traviata”sı |
| | დ) Kristof Qlukun “Orfey və Evridika” |
| | ე) Pyetr Çaykovskinin “Yevgeniy Onegin” |

**Tapşırıq 32.**

**Sergey Prokofyevin “Petya və canavar” simfonik nağılının musiqili çalğı alətləri və personajları arasında uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1) Qaboy | ა) Petya |
| 2) Valtorna | ბ) Canavar |
| 3) Faqot | გ) Quş |
| | დ) Ördək |
| | ე) Baba |

**Tapşırıq 33.**

**Simfoniyalar və bəstəkarlar arasında uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1) “Başa çatmamış” | ა) Hektor Berlioz |
| 2) “Fantastik” | ბ) Frans Şubert |
| 3) “Yeni aləmdən” | გ) Amadeus Motsart |
| | დ) Antonin Dvorjak |
| | ე) İozef Haydn |

**Tapşırıqlar 34–38.**

***„Düzgündür-səhvdir“***

**Təlimat. Verilən müddəanın düzgün yaxud səhv olduğunu müəyyən edin; müddəanı düzgün sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin; belə hallarda sizdən izahat tələb edilməyəcəkdir; əgər müddəanı səhv sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin və ayrılmış yerdə düzgün izahı yazın.**

**Müddəanın səhv olduğu təqdirdə, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın yaxud verilmiş termini/sözü düzgün izah edin.**

**Nəzərə alın ki, verilmiş izahın müsbət forması mənfi forma ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmur.**

**Tapşırıq 34.**

Concerto grosso'nun janrı klassisizm dövründə yaradılmışdır.

**Tapşırıq 35.**

Musiqi termini Diminuendo tempin sürətləndirilməsi deməkdir.

**Tapşırıq 36.**

Orta əsrlərdə messa alman dilində ifa olunurdu.

**Tapşırıq 37.**

Qərbi Gürcüstanın xalq mahnılarını təzadlı tipli polifoniya səciyyələndirir.

**Tapşırıq 38.**

Əsasən, balet terminologiyası italyan dilindədir

**Tapşırıqlar 39 – 40.**

***Xronologiyanın müəyyən edilməsi***

**<u>Təlimat.</u> Siyahını ən köhnədən ən yeniyə doğru xronoloji qaydada yerləşdirin. Cavablar cədvəlində xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-dək qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca əlifbanın müvafiq hərfləri ilə düzgün cavabları yazın (ა, ბ, გ, დ).**

**Tapşırıq 39.**

**Gürcü bəstəkarlarının soyadlarının siyahısını, onların həyat və fəaliyyət dövrü üzrə xronoloji qaydada yerləşdirin:**

ა) Qiya Kançeli

ბ) Zaxar Paliaşvili

გ) Aloiz Mizandari

დ) Andria Balançivadze

**Tapşırıq 40.**

**Musiqi janrlarının siyahısını xronoloji qaydada yerləşdirin:**

ა) Motet

ბ) Simli kvartet

გ) Simfonik poema

დ) Opera